Отмечается, что Кедабекский район район был одной из зон интенсивного заселения в раннем средневековье. Сравнивая некоторые сведения из «Истории Албании» М. Каланкатуклу, можно сказать, что Кедабекская область в историко-географическом аспекте соответствует провинции Гирдиман и, по крайней мере, является неотъемлемой частью этой провинции. Известно, что в раннем средневековье Гирдиманское государство имело крупные рудные месторождения. Это подтверждают и древние слитки, найденные во многих частях Кедабекской области. В целом на основании вышеуказанных фактов можно сделать вывод, что Кедабекский район Азербайджана в раннем средневековье был локализован в пределах Гирдиманской провинции Кавказской Албании.

**HISTORICAL GEOGRAPHY OF THE EARLY MEDIEVAL PERIOD OF THE GADABAY REGION OF AZERBAIJAN**

***Mehdiyev Eldar***

***Summary***

This article examines the early medieval historical geography of the Gadabay region of Azerbaijan. The Gadabay region covers the northeastern slope of the Lesser Caucasus, the territory of the Shamkirchay, Zayamchay and Akhinchichai valleys. This region is bordered in the west and southwest by the Lesser Caucasus mountain range, in the south and southeast by the Shamkirchay valley, in the north by the Zayamchay and Akhinchichai valleys, and in the east by the Shamkir region. It is noted that the Gadabay region was one of the zones of intensive settlement in the early Middle Ages. Comparing some information from the "History of Albania" M. Kalankatuklu, we can say that the Gadabay region in the historical and geographical aspect corresponds to the province of Girdiman and, at least, is an integral part of this province. It is known that in the early Middle Ages the state of Girdiman had large ore deposits. This is also confirmed by ancient ingots found in many parts of the Gadabay region. In general, on the basis of the above facts, it can be concluded that the Gedabek region of Azerbaijan in the early Middle Ages was localized within the Girdiman province of Caucasian Albania.

***Rəyçi dos. Sevinc Bağırova***
***Azərbaycan tarixi kafedrasının 06 oktyabr 2021-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olduğu tarix 26 oktyabr 2021-ci il***

**UOT:94 (479.24.)**

# AZƏRBAYCANDA TUNC VƏ ERKƏN DƏMİR DÖVRÜ DÖYÜŞÇÜLƏRİNƏ AİD KURQANLAR

***Mehdiyeva Həqiqət Şaadət qızı***
***Bakı Dövlət Universitetinin Qazax filialı***
***heqiqet.mehdiyeva.91@mail.ru***

**Xülasə:** *Məqalədə qəbir abidəsi olan kurqandan bəhs edilir. Azərbaycanın müxtəlif bölgələrində olan kurqanlar quruluşu və avadanlığının zənginliyinə görə fərqlənirdi.*

*Xüsusilə döyüşçüyə məxsus kurqanların avadanlığı bir qədər də zəngin olurdu, çünki bu zaman kurqana hərbçilərlə yanaşı at skeletləri də qoyulurdu. Belə kurqanlara Dovşanlı, Üçtəpə, II Plovdağ, Borsunlu və s. kurqanlarını misal göstərmək olar.*

**Açar sözlər:** Kurqan, neolit, eneolit, tunc, dəmir, Plovdağ, xəncər, qılınc, Üçtəpə.

**Ключевые слова:** Курган, неолит, енеолит, бронза, железо, Пловдаг, крестик, меч, Учтепе.

**Key words:** Kurgan, neolith, eneolite, bronze, iron, Plovdagh, dagger, sword, Uchtepe.

İbtidai icma dövründə mövcud olan dəfn adətlərindən biri olan kurqanlar öz quruluşuna görə xüsusilə seçilirdi. Dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da yaşayış yerlərindən aparılan qazıntılar zamanı kurqan qəbirləri arxeoloqlar tərəfindən öyrənilmişdir.

Kurqan ilk zamanlar idarəçilikdə olan nümayəndələrin dəfni üçün nəzərdə tutulmuşdu. Sonralar isə döyüşçülərin, tayfaların digər üzvlərinin dəfnin də kurqanlarda icra olunmuşdur.

Kurqan torpaq, ağac və ya daşdan düzəldilirdi. Sünitəpə formasında olurdu, yarımkürə formalı qədim qəbirüstü abidə idi. Kurqanlar hələ son Neolit və Eneolit dövrünə aiddir, müxtəlif böyüklükdə və formada hazırlanırdı. Qəbirlər əsasən sərdabə, katakomba, daş və ya taxta qutu formalarında düzəlirdi. Qəbirlərəmeyitlə yanaşı qab-qacaq, yemək, silah, bəzək əşyaları, əmək alətləri və s. qoyurdular. Hətta ölünün atı, arvadı, qulları da ölü ilə bərabər basdırılırdı. Azərbaycanda həmçinin heç bir əşya qoyulmayan kurqanlara da rast gəlinir[1].

Kurqan tipli dəfn adəti qazıntılar zamanı bir çox yaşayış yerlərindən aşkar edilmişdir. Tapılan avadanlığına baxmaqla qadın və ya kişi qəbri olduğu müəyyən edilirdi. Hətta tayfa başçıları dəfn olunmuş kurqanlar da aşkar edilmişdir. Azərbaycanın müxtəlif bölgələrindən kurqan tipli qəbirlərə rast gəlinir.

Azərbaycanın qəbir abidələrindən silahlarla müşaət olunan dəfn adətləri həmin qəbirlərin döyüşçülərə məxsus olduğunu söyləməyə əsas verirsə də, lakin istisnalar da olur. Qəbir abidələrindən əldə edilən silahlar isə uzunluğu, forması və hazırlanma texnikasına görə bir-birindən fərqlənir.

Xaraba-Gilanərazisində Plovdağ nekropolunda 16 və 18 saylı kurqanda aparılan arxeoloji tədqiqatlar zamanı 18 saylı qəbirdə 30-35 yaşlarında kişiyə məxsus skeletə rast gəlinmişdir. Dəfn qəbrdə sol yanı üstə, arxası şimal divarına söykənmiş halda, yarımbükülü vəziyyətdə icra olunmuşdur. Bu barədə Bəhlul İbrahimli geniş məlumat vermişdir:

Ölünün sağ əli boşdur, sol əlində isəağacdan sapı olan dörd çıxıntılı tunc toppuz olmuşdur. Ayağının altına yaxın 1 ədəd ayaqbənd tapıldı. Qəbrin bu hissəsində açılmış quş qanadı-lələkləri aşkar edildi. Qəbrə qoyulmuş əşyaların sayının da müəyyən semantik mənası vardır. Burada 1 (tək dəfn, xəncər, toppuz, altıbucaqlı asma, tağalaq, qırmızı qab, qara qab, ayaqbənd, dağ keçisi), 2 (boyunbağı, gil qab), 4 (toppuz başının dörd relyefik çıxıntısı, giriş yolu şərqə tərəf olmaqla qəbrin dörd tərəfi), 6 (altıbucaqlı asma bəzək) və 9 (daşdan hazırlanmış ox ucluqları) rəqəmlərinə rast gəlinir. Bu rəqəmlərdən hər birinin həm dini, həm də mifoloji mənası vardır. 1-Allahı, başlanğıcı, bütövlüyü, 2-ayrılmaz çütlüyü-ilk növbədə həyatı və ölümü, xeyri və şəri, mənfi və müsbət birliyini, 4-yuxarıda qeyd etdiyimiz kimi zaman və məkan üzərində mütləq hakimiyyəti, 6-ittifaqı, tarazlığı, harmoniyanı və gözəlliyi, 9-mütləq təkmilliyi bildirir. Lakin, skeletin üstündə aşkar olunmuş əşyalar onun eyni zamanda qəbilənin dini başçısı-baş kahini də olduğunu ehtimal etməyə əsas verir. 18 saylı qəbrə qoyulmuş oxlar haqqında da müəyyən mülahizələr söyləmək olar. Döyüşçü və ovçu qəbirlərinə ox qoyulması adəti çox qədimdən məlumdur və burada qeyri-adi heç bir şey yoxdur[4].

Ümumiyyətlə II Plovdağ nekropolunun 18 saylı kurqanından tapılan silahlar çoxluq təşkil edir. Belə ki, burada dəfn olunanın yanına qoyulan silahlar içərisində təkcə toppuzlar deyil, həm də ox ucluqları, ox ucluqlarının qoyulması üçün ox qabları, xəncərlər, nizə ucluqları və s.-nin olması bu qəbrin hərbçiyə məxsus olduğunu söyləməyə əsas verir. Lakin ölünün qulağındakı 32 ədəd ağ pasta muncuqdan hazırlanmış sırğa və müxtəlif muncuqlardan ibarət iki ədəd boyunbağının olması bu qəbrin dini başçısına aid olduğunu söyləməyə əsas verir.

Mil-Qarabağ bölgəsinin döyüşçülərə aid qəbir abidələrinə Borsunlu, Xankəndi, Üçtəpə, Xaçınçay kurqanları və s. göstərmək olar.

Çalxanqala kurqanlarının birindən (1 saylı kurqan) boz və monoxrom boyalı qablar, yarpaqşəkilli tunc nizə ucu, ikincidən (1 saylı kurqan) boz rəngli, monoxrom boyalı qablar, tunc xəncərlər, boru dəstəkli nizə ucluğu, tunc sancaqlar, muncuqlar və lentşəkilli tunc əşyanın parçası aşkar edilmişdir[1].

Xanlar rayonu ilə Gəncə şəhəri arasında yerləşən Topalhəsənli kurqanın avadanlığı və yayılma arealına görə xüsusilə seçilirdi. Burada Topalhəsənli kurqanın içərisindəki

avadanlığına çoxsaylı silahlar (tunc xəncər, nizə ucluğu, bıçaq və s.), bəzək əşyaları (qolbağlar, üzüklər, boyunbağlar və s.), tuncdan hazırlanmış inventar metal nümunələri və mütəlif heyvan fiqurları istehsal mexanizmi və yayılma arealına görə geniş sahəni əhatə etmiş və Xocalı-Gədəbəy mədəniyyətlərinin formalaşmasına təsir göstərimişdir[1].

*Daşlı çökək kurqanları*ndan 1 saylı kurqanın diametri 8-10 m, hündürlüyü isə 0,6-0,7 m olmuşdur. Kurqan örtüyünün mərkəz hissəsində daşlar iri və sıx, ətraflarda isə seyrək olmuşdur. Daşla dolu qəbir çalasının dərinliyi 1,5 m idi. Burada 1 nəfər bükül vəziyyətdə, sağ böyrü üstə, əlləri üzününü qarşısında, başı şimal-qərb istiqamətində dəfn edilmişdi. 2 saylı kurqan 1 saylı kurqandan 30-40 m şərqdə yerləşir. Örtüyün qalmış hissəsi irili-xırdalı daşlardan ibarətdir. Skeletinin qərb tərəfində başının arxasında dəvəgözü daşından 10 ədəd gəzli və 1 ədəd tunc ox ucluğu aşkar edildi. *Yovşanlı təpə kurqanları* Daşlı çökək kurqanlarından təxminən 150-200 m şərqdə, uzunluğu 100-150 m, hündürlüyü 70-80 sm-dən hündür olmayan "Yovşanlı təpə"nin üstündə yerləşmişdir. 1 saylı kurqan təpənin şərq hissəsində yerləşmişdir. Kurqan örtüyündən şimal-qərbdə, dərinliyi 1,1 m olan qəbir kamerası aşkar edilmişdir. Qəbirdə tunc xəncər tapılmışdır. Xəncər uzunsov üçbucaq formalıdır. Hər iki üzünün ortası boyunca qabarıq zolaq keçir. O, tiyəni dəstəyə bərkitmək üçün kiçik düzbucaq formalı dəstəyə malikdir. Dəstəkdə alt-alta iki deşik açılmışdır. 2 saylı kurqan 1 saylı kurqandan təxminən 35-40 m şimal-qərbdə yerləşirdi. Diametri 4,5 m-dir. Kurqanda gil qab nümunələri çoxluq təşkil edir[6].

Ümumiyyətlə "Daşlı çökək" və "Yovşanlı təpə" kurqanlarından əldə edilmş saxsı qab, keramika və tunc xəncər nümunələri tunc dövrünün geniş şəkildə öyrənilməsində əsas mənbə rolunu oynamışdır.

Qəbir abidələrində qeyd etdiyimiz kimi kişi qəbirləri ilə yanaşı döyüşçü qadınlara məxsus da silahlar tapılmışdır. Bu cür qəbirlər müxtəlif bölgələrdən açılmışdır. Lakin bəzən mübahisəli fikirlər otaya çıxır:

Tunc dövründə qadınların döyüşdə kişilərlə bərabər iştirak etməsi haqqında İ.İ.Meşşaninovun fikri ilə hələlik razılaşmaq çətindir. Bunu qəbirdəki (Qızılvəng, 2 saylı qəbir) qadın skeletlərinin yanında silah olmaması, həmçinin qadın skeletlərinin bəzək əşyaları ilə dəfn olunması sübut edir[3].

Ancaq aparılan qazıntılar bu fikirlərin bir qədər yalnış olduğunu göstərir.

Qarabağın Dovşanlı kəndinin cənubunda Dovşanlı (Arçadzor) kurqanlarından (1 saylı kurqan) təbərzin aşkar edilmişdir. Kurqanda 4 ölü basdırılmışdır. E.Resler qəbir avadanlıqlarının əksəriyyətinin döyüş sursatları olduğunu, burada bir qadın skeleti olduğunu da etiraf etmişdir. Qəbirdən tapılan döyüş sursatları içərisində qılınc, xəncər, tunc dəbilqə, yaba, dəvəgözündən düzəldilmiş ox ucluqları, tunc bəzək əşyaları, at əsləhələri, təbərzin balta və s. olduğu qeyd edilmişdir. Döyüşçü qadınlara məxsus silah və sursatlardan söhbət getdikdə, daş toppuzlara xüsusilə diqqət yetirmək lazımdır. Tunc dövründə geniş yayılmış daş toppuzlar I və II Kültəpə abidələrindən, Qobustandan, o cümlədən, Qaraköpəktəpə, Qarğalar təpəsi, Şomutəpə, Töyrəttəpə, Üzərliktəpədən, Əlikömək təpəsindəki 8 saylı qəbirdən, Borsunlu kurqanlarından (1 və 12 saylı kurqanlardan) da tapılıb. Borsunlu (Tərtər) kurqanından əlavə olaraq təbərzin balta, ərsin balta, armudvari toppuz başı tapılıb. Xaçınçay kurqanından daş toppuz aşkar edilmişdir[5].

Azərbaycanda arxeologiyanın banilərindən biri hesab edilən arxeoloq Saleh Qazıyevin Mingəçevirdən aşkar etmiş olduğu bir çox döyüşçü qadın qəbirləri bizə məlumdur. Arxeoloq eyni zamanda Oğuz rayonunda da (keçmiş Vartaşen) silahlı qadın qəbiri aşkar etmişdir. O, arxeoloji materiallara əsaslanaraq həmçinin qadınların döyüşlərdə iştirak etdiyini faktlarla təsdiqləndiyini qəbul etmişdir. Vardanlıda və Mingəçevirdə də qadın qəbirlərindən silahlar tapılmışdır. Bu da göstərir ki, ölkənin müdafiəsində qadınlar da iştirak etmişlər (148) deyə qeyd edən S.Qazıyev silahlı qadın qəbrini geniş təhlil etməsə də onun qadın olduğunu,

qəbrindən silah aşkar edilməsini və qadınların hərb tarixində böyük rolu olduğunu bildirmişdir[5].

Qəbələ mahalında Tunc və Dəmir dövrünə aid qədim maddi mədəniyyət qalıqları ilk dəfə Oğuz rayonunun (keçmiş Vartaşen) Vardanlı və Qarabaldır kəndlərinin cənubundan tapılmışdır. Tədqiqat zamanı məlum olmuşdur ki, həmin dövrə aid abidələr Qəbələ mahalının bir çox yerlərində vardır. Abidələrdən əldə edilmiş xəncər, qılınc, cida və toppuzlar tunc və dəmirdən hazırlanmışdır. Xəncər qınlarının ucları tuncdan, qalan yerləri isə ağac və sümükdən düzəldilmişdir. Bu faktların hamısı göstərir ki, yerli əhali bu dövrdə döyüşçü olmuş və zəmanəsinin mükəmməl silahları ilə silahlanmışdır. Bu dövrə aid kişi qəbirlərindən tapılmış maddi-mədəniyyət qalıqları içərisində eni 11 sm olan tunc kəmərlər göstərir ki, döyüşçülər bellərinə enli kəmər bağlamışdır. Yəqin ki, xəncərləri bu kəmərlərin altında gəzdirmişlər. Qadın qəbrindən də xəncərin tapılması o zamanlar qadınların da silahlandıqlarına bir sübutdur[7].

Qəbir abidələrində döyüşçülərlə yanaşı onların döyüşlərdə əsas köməkçiləri olan atları da dəfn olunurdu. Bu cür qəbir abidələrinə Borsunlu, Sarıçoban, Xocalı, Bəyimsarov, Mingəçevir və s. kurqanları misal göstərmək olar. Bəzən isə atı diri-diri dəfn edirdilər. Bu da axirətə inamla bağlı olmuşdur. Dovşanlı kurqanlarında müxtəlif əşyalarla yanaşı tuncdan hazırlanmış silahlar və at skeletləri tapılmışdır. Bu da həmin kurqanlarda döyüşçü dəfn olunduğunu göstərir. Bu barədə F.Quliyev qeyd etmişdir:

2 saylı kurqanın (konusvari daş örtüyün üst hissəsinin hündürlüyü 5,5 metr, diametri isə ətəyində 16 metr, yastılanmış üst hissədə 5,5 metr) örtüyünün 3 metr dərinliyində, süni düzəldilmiş yastı səth üzərində, mərkəzdən üç istiqamətdə şüavari ayrılan üç qəbir aşkar olunmuşdur. Şimal-şərq və qərb istiqamətli qəbirdə isə başsız ölü dəfn olunmuşdur. Onun yanında bir sıra tunc əşyalarla yanaşı, at sümükləri və əsləhəsi tapılmışdır. Burada da materialların böyük əksəriyyətini tunc əşyalar təşkil edir. Onlar-uzun qılınc, ikidişli yaba, ağac qalığı qalmış xəncərlər (3 ədəd), adi xəncərlər (2 ədəd), uzunsov tiyəli, borulu nizə ucu, sallaq qanadlı ox ucluqları (30 ədəd), bıçaqlar, iskənə parçası, üzük, pasta, quş başı formalı halqa, çəkicvari tökmə əşyadan ibarətdir[4].

Tunc silahlarla yanaşı at skeletlərinin tapıldığı kurqanlardan biri də Mingəçevir kurqanları olmuşdur. 20 kurqandan ibarət Mingəçevir kurqanından 5-də arxeoloji tədqiqat işləri aparılmışdır. 2 saylı Mingəçevir kurqanında isə müxtəlif silah növləri və at skeletləri tapılmışdır.

Tuncdan hazırlanan əşyalar içərisinə isə nizə ucluğu, ox ucluqları, at yüyənləri və başqa materiallar daxildir. Kurqanlarda iki növ yüyən aşkar olunmuşdur. 4 saylı kurqan. Kameranın mərkəzində isə 8 at skeleti bir-birinin ardınca bükülmüş halda, başları cənuba tərəf yönəlmiş vəziyyətdə qoyulmuşdur. Skeletin qolunda tuncdan bilərziklər və yanında isə 50 ədəd tuncdan Cənubi Qafqaz tipli ox ucluqları tapılmışdır[1].

Kurqanların tədqiqi zamanı əldə edilən maddi-mədəniyyət nümunələri bir daha göstərir ki, məhz Azərbaycanda hərb tarixi hələ tunc dövründən əvvəl inkişaf etmişdir.

### ***Ədəbiyyat***


1. Avşarova İ.N. Tunc dövrünə aid maddi mədəniyyət qalıqları. Yazılı mənbələr Cənubi Azərbaycanda və ona qonşu ərazilərdə etnososial səciyyə daşıyan birləşmələrin mövcudluğu barədə məlumatlar verir. Xalq Cəbhəsi qəzeti. 2014, 1 oktyabr 14 s.
2. Azərbaycan Sovet Ensiklopediyası. On cilddə. Bakı: 1982, Cild VI. Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası. 608 s.
3. Əliyev V. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm.1977,165s.
4. İbrahimli B. İkinci Plovdağ nekropolunun 18 №-li kurqanı haqqında // Azərbaycan arxeologiyası və etnoqrafiyası. № 2. Bakı: Nafta-Pess, 2011, 247 s.

5. Qədirova N.A.G. Cənubi Qafqazda son tunc və erkən dəmir dövrünə aid döyüşçü qadın qəbirləri (Qafqaz amazonları: miflər və arxeoloji faktlar) // Arxeologiya və Etnoqrafiya. Tarix və onun problemləri. № 4. Bakı; Nafta-Press, 2014, 301-310 s.
6. Quliyev F. E. Azərbaycanın kurqan qəbirlərində at dəfni. Bakı: Elm, 2008, 300 s.
7. Rüstəmov C., Muradova F. Daşsalahlı kurqanları // Azərbaycan arxeologiyası. cild 17 № 1. Bakı: Xəzər Universiteti, 2014, 25-37 s.

## БРОНЗОВОГО И РАННЕГО ЖЕЛЕЗНОГО ВЕКА КУРГАНЫ БОРЦЫ АЗЕРБАЙДЖАН

***Мехтиева Хагигат Шаадат***

***Резюме***

В статье кургана захоронения памятника. По богатству курганов в разных частях конструкции и оборудований различны.

Были курганы солдат, особенно один настолько богат, наряду с военными из-за кургана, когда он был поставлен на лошади скелетов. Такие курганы Довшанлы, Учтепе, II Рловдаг, Борсунли и другие например могиллы.

## BRONZE AND EARLY IRON AGE BURIAL MOUNDS FIGHTERS AZERBAIJAN

***Mehdiyeva Hagigat Shaadat***

***Summary***

The article is about barrow burial monument. According to the riches of the riches of the mounds in different parts of the structure and equipment of different.

There were mounds of a soldier. Especially one so rich, along with the military because of the barrow when it was put on a horse skeletons. Such mounds Dovshanly, Uchtepe, II Plovdag, Borsunlu and others for example graves.

***Rəyçi:t.ü.f.d. Allahverdiyeva Gültəkin***
***BDU Qazax filalının İctimai elmlər kafedrasının 10 noyabr 2021-ci il 03 saylı protokolu***
***Daxil olduğu tarix 16 noyabr 2021-ci il***

**UOT:94(479.24)**

## QƏCDUVAN MƏĞLUBİYYƏTİNDƏN SONRA ZƏHİRƏDDİN BABURUN SƏFƏVİLƏRLƏ MÜNASİBƏTLƏRİNƏ DAİR

***t.ü.f.d. Məmmədova Yeganə Ehsan qızı***
***Gəncə Dövlət Universiteti***
***yegana-mammadova@mail.ru***

**Xülasə:** *Mövcud məqalə Qəcduvan döyüşündən sonra Zəhirəddin Baburun səfəvilərlə münasibətlərinin öyrənilməsinə həsr olunmuşdur. Belə ki, bu döyüşdən sonra Baburla Şah I İsmayıl arasında olan alyans pozulur. Lakin Babur səfəvilərlə münasibətlərin tamamilə kəsilməsində maraqlı deyildi və bu səbəbdən də əlverişli şərait yaranan kimi onlarla münasibətləri bərpa etməyə çalışır. Bununla belə, Bəlx və Qəndəharla bağlı Baburla səfəvilər arasında narazılıq yaranır. Şimali Hindistanı fəth etdikdən sonra Babur Səfəvilərlə münasibətləri bərpa edir və səfirliklər mübadiləsi edilir.*

*Onu da qeyd etmək lazımdır ki, bu dönəm Baburun səfəvilərlə münasibətləri ətraflı şəkildə öyrənilməmişdir və bu məqalə həmin boşluğun aradan qaldırılmasına xidmət edir.*

**Açar sözlər:** Şah I İsmayıl, Zəhirəddin Babur, ittifaq, Qəcduvan, əlaqələr